## *TƏHSİLİN İDARƏOLUNMASI*

UOT 371.

***Şəfiqə Veys qızı Zülfüqarova***
*pedaqogika üzrə fəlsəfə doktoru*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*baş müəllimi*

# ALİ PEDAQOJİ KADR HAZIRLIĞINDA KEYFİYYƏTİN İDARƏ OLUNMASINA YANAŞMALARDA FƏRQLİLİK

***Шафига Вейс гызы Зульфугарова***
*доктор философии по педагогике,*
*старший преподаватель*
*Азербайджанского Государственного Педагогического Университета*

# РАЗНИЦА В ПОДХОДАХ К УПРАВЛЕНИЮ КАЧЕСТВОМ ПРИ ПОДГОТОВКЕ ПЕДАГОГИЧЕСКИХ КАДРОВ

***Shafiga Weiss Zulfugarova***
*doctor of philosophy in pedagogy*
*senior lecturer of Azerbaijan State Pedagogical University*

# THE DIFFERENCE IN APPROACHES TO QUALITY MANAGEMENT IN THE PREPARATION OF TEACHING STAFF

**Xülasə:** Müəllif elmi məqalədə ali təhsil müəssisələrində keyfiyyətin idarə olunmasına yanaşmalarda fərqlilikləri göstərmişdir. O, bu fərqli yanaşmalarda olan fikir ayrılıqlarını və elmi faktları, münasibətləri, elmi fəaliyyəti, həyata keçirilən tədbirləri, qanun və islahatları göz önünə gətirərək araşdırmışdır.
***Açar sözlər:*** *keyfiyyət, sənəd, təhsil, mexanizmlər, kadrlar, fərqlilik*

**Резюме.** Автор выделил различия в подходах к управлению качеством в высших учебных заведениях. Он исследовал различия во мнениях в этих различных подходах и выявил научные факты, отношения, научную деятельность, осуществленные меры, законы и реформы.
***Ключевые слова:*** *качество, документ, образование, механизмы, кадровое обеспечение, разница*

**Summary.** The author has highlighted differences in approaches to quality management in higher education institutions. He explored differences of opinion in these different approaches and brought to light the scientific facts, attitudes, scientific activities, implemented measures, laws and reforms
***Key words:*** *quality, document, education, mechanisms, staffing, difference*

1980-cı ilə qədər Avropa universitetlərində keyfiyyətlə əlaqədar problem elan olunsa da, bu keyfiyyətin təmin olunması üçün ali məktəblər, eləcə də hökumətlər səviyyəsində xüsusi mexanizmlər, həmçinin vasitələr işlənib hazırlanırdı. Keyfiyyət idarəetmə sisteminin qiymətləndirmə ilə əlaqədar olmayan və universitetlərin xüsusi məsuliyyət predmeti olmayan hissələri qeyri-formal özünütənzimetmə mexanizminin bir hissəsi kimi müəyyən olunur. Əksər Avropa dövlətləri keyfiyyətli idarəetmənin formal sistemlərini, o cümlədən mexanizmlərini, onlarla bağlı olan akreditasiya və xarici hesabat prosedurlarını yaratmışlar.

T. Abdullayeva yazır: ”Son illərdə bütün dünyada universitetlərin müxtəlif tip proqramlarda birgə iştirak etmələri müşahidə olunur. Təhsil mədəniyyətinin inkişafı və təhsil proq-

ramlarının keyfiyyətinin rəqabət qabiliyyətliliyinin artırılması üçün yeni imkanların yaradılması, tələbələrin, eləcə də müəllimlərin akademik mobilliyinin meydana gəlməsi beynəlxalq proqramlarının daxili elementinə çevrilir. Hazırda bütün dünyada geniş yayılmış bərabər proqramları, ikili və birgə diplomlar proqramı kimi formaları qeyd etmək olar."

Bir sıra ölkələr, ilk olaraq Şərqi Avropa dövlətləri birgə proqramlarda iştiraka maraq göstərmişdir. Bununla da Avropa təhsil sistemi Bolonya prosesinin sürətlənməsini əldə etmişdir. Müştərək diplomlar sahəsində əməkdaşlıq təhsil sisteminin keyfiyyətinin artırılmasına, ümumavropa ali təhsil məkanında dərəcələrin və ixtisasların tanınmasına, mobilliyin, məzunlar üçün beynəlxalq əmək arenasında əlverişli şərait yaradılmasının və ümumi ali təhsil məkanlarının cəlbediciliyinin inkişafına rəvac verir. Birgə diplomlar adətən tədris kursundan sonra verilir. Birgə proqramlar universitetlərin özlərinin bir təşəbbüsü ilə meydana çıxır, bu səbəbdən də çox vaxt onunla bağlı nazirlik səviyyəsində dolğun məlumat olmur. Bu proqramlar Avropa dövlətlərində son dərəcədə qeyri-bərabər paylanır.

Müştərək və yaxud da ikili diplomların yayılması üçün mühüm məsələ isə onların maliyyələşdirilmə bazasını genişləndirməkdir. Mövcud proqramlar adi proqramlarla müqayisədə böyük xərc tələb edir. Xərclərin şəbəkə iştirakçısının öz tərəfindən və yaxud tələbələr tərəfindən kompensasiyaedilmə praktikası yayılmışdır. Birinci üsul universitetlərin bu proqramlara marağını azalda bilər. İkinci üsul isə tələbələr arasında qeyri-bərabərliyə səbəb olar və bu proqramlar hamıya yararlı olmaz. Ümumavropa zonasının intellektual, mədəni, sosial, eləcə də texniki bazasını yaratmaqla gücləndirmək yolunda "Bolonya prosesi"nin əhəmiyyəti böyükdür. Prosesin mahiyyəti yaxın illərdə Avropa təhsil zonası adlanan və təməl prinsiplərinin eyniliyinə əsaslanmış ümumavropa ali təhsil sistemi formalaşdırmaqdır. 1998-ci ilin 25 may tarixində Avropanın 4 dövlətin – Böyük Britaniya, Almaniya, İtaliya, eləcə də Fransanın təhsil nazirləri tərəfindən imzalanmış Sorbona Bəyannaməsi Avropa mədəni dəyərlərinin inkişafında universitetlərin rolunu xüsusi vurğuladı. Bolonya Bəyannaməsi rəsmi şəkildə 1999-cu il iyun ayının 30-da İtaliyanın Bolonya şəhərində Avropa dövlətlərinin təhsil nazirləri tərəfindən təsdiqləndi. Avropa Şurasına daxil edilən ölkələrin əksəriyyəti Bolonya Bəyannaməsinə qoşuldu. 17-18 may 2004-cü il tarixində Avropa Şurasının Baş direktorluğunun aparıcılığı ilə keçirilmiş Qafqaz dövlətləri təhsil nazirlərinin konfransında aparıcı bəyannamə qəbul olundu. Dekabr 2004-cü il tarixində "Bolonya prosesi"nə qoşulmaq məqsədilə Azərbaycan Təhsil Nazirliyinin hesabatı hazırlanıb Avropa Komissiyasına təqdim edildi. 2005-ci il 19 may tarixində Norveçin Berqen şəhərində keçirilmiş konfransda Azərbaycanın sabiq təhsil naziri cənab Misir Mərdanov Azərbaycan ölkəsi adından deklarasiyanı imzaladıqdan sonra Respublikamızda Bolonya prosesinin rəsmi tarixi başlanmışdır. Bolonya Bəyannaməsinin ən əsas müddəaları aşağıdakılardan ibarətdir:

1. İki pilləli ali təhsil sisteminin tətbiq edilməsi.
2. Ali təhsilin qeyri-universitet statusunun gücləndirilməsi.
3. Təhsil müddətinin azaldılması.
4. Doktorluq proqramının təşkili və strukturundakı dəyişikliklər.
5. Təhsilin keyfiyyətinə nəzarətin təmin olunması.
6. Kredit sisteminin tətbiqi.
7. Mobilliyin (sərbəst hərəkətin) genişləndirilməsi.
8. Dərəcələrin tanınması.
9. Məzunların işlə təmin olunması.
10. Avropa təhsil sisteminə cəlb edilmənin təminatı.
11. Təhsilin sosialyönlü olmasının təmin edilməsi.

Ölkəmizdə təhsilin inkişafına və keyfiyyətinin yüksəldilməsinə kömək göstərən, təhsil sahəsindəki vacib problemlərin həlli üçün təkliflər verən Azərbaycan Təhsil Şurası vaxtaşırı olaraq aktual mövzularda tədbirlər, elmi-nəzəri və təcrübi konfranslar, görüşlər, müzakirələr keçirir. Belə konfranslardan biri də Şuranın Təhsil Nazirliyi ilə birlikdə 2008-ci il yanvarın 30-da keçirdiyi "Bolonya prosesinin nəzəri və praktik-texnoloji məsələləri" mövzusunda elmi-praktik konfrans idi.

Ümumilikdə, Azərbaycan Respublikası öz müstəqilliyini və suverenliyini bərpa etdiyi zamandan bu günə kimi ölkəmizdə bir çox sahələ-

rin – siyasi, sosial, iqtisadi, mədəni həyatın, həmçinin təhsilin inkişafına xidmət edən mühüm sərəncamlar verilmişdir. Onlardan biri də təhsilimizin Avropa təhsil məkanına inteqrasiyasını nəzərdə tutan "Azərbaycan Respublikasının ali təhsil ocaqlarının Avropa ali təhsil məkanına inteqrasiya etməsi ilə əlaqədar bəzi tədbirlər sistemi haqqında" 2008-ci il 31 yanvar tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanmış sərəncamdır. Sərəncamda deyilir ki, "2001-ci ildən başlayaraq Azərbaycanın Avropa Şurasına üzv olması dövlətimizin Avropa məkanına inteqrasiyasını sürətləndirmişdir. Mövcud proseslərin tərkib hissəsi olaraq Azərbaycan Respublikası Avropa dövlətlərinin təhsil nazirləri tərəfindən qəbul edilən Boloniya deklarasiyasını imzalamaqla ölkənin ali təhsil müəssisələrinin Avropanın təhsil sisteminə inteqrasiya etməsi yolunda mühüm addım atmışdır."

Bolonya deklarasiyası bu prosesdə iştirakçı olan ölkələrin ali təhsil sistemlərinin bir-birinə nüfuz etməsində mühüm vasitədir.

A. Abbasov, S. Əliyev, T. Paşayev belə hesab edirlər ki, "Avropa ölkələrinin təhsil sisteminin inteqrasiyası və Ümumavropa ali təhsil məkanının yaradılması göstərir ki, Avropa təhsil sisteminin digər ölkələrin təhsil sisteminə inteqrasiyasının əsas yolu Bolonya prosesidir. Ona görə bu prosesin müddəalarını ali təhsilə tətbiq etmədən təhsilin keyfiyyətinin yüksəldilməsi mümkün deyildir."

Bununla yanaşı, Avropa Birliyi tələbələrin arzuları ilə bağlı istədikləri ölkədə ali təhsil almalarını və ya davam etdirmələrini asanlaşdırmaq məqsədilə Avropa Kredit Transfer Sistemini (AKTS) yaratdı.

AKTS öz mahiyyəti, məqsədi, idarəolunma strukturu, həyata keçirəcəyi tələblərin əhatə dairəsi və bir sıra digər xüsusiyyətləri ilə səciyyələnirdi. Bunlardan bəzilərini açıqlamaq önəmli olardı. AKTS müxtəlif ölkələrin ali məktəblərində oxuyan tələbələrin mobilliyini asanlaşdırmaq və onların xarici ölkələrdə aldıqları təhsilin öz ölkələrində tanınmasını reallaşdırmaq üçün və həmçinin, onların mübadilə proqramı ilə aldıqları təhsilin nəticələrinin bütövlüklə bütün müvafiq təşkilatlarda tanınmasını təmin etmək üçün yaradılmışdır. Bu sistem akademik tanınma sistemi olmaqla, onun əsas məqsədi kredit və qiymətləndirmə sahəsində Avropa səviyyəsində standartlaşmaq, şəffaflığa, obyektivliyə nail olmaq və bununla da Avropanın təhsil sistemini gücləndirməkdir. Bu məqsədlə AKTS Avropa ölkələrində ali təhsil alan tələbələrin bir ali məktəbdən digərinə köçürülməsi işinin asanlaşdırılması üçün həyata keçirdiyi əməliyyatlarda "Ortaq dil" ifadəsindən istifadə edir.

**Problemin aktuallığı.** Ali pedaqoji kadr hazırlığında keyfiyyətin idarə olunması məsələlərinə yanaşmalarda fərqli yanaşmalar və mövqelər mövcuddur. Bu, fərqliliklərin səbəblərinin araşdırılması isə gələcək pedaqoji kadrların hazırlanması baxımından olduqca aktualdır.

**Problemin elmi yeniliyi.** Elmi məqalədə müştərək diplomlar sahəsində əməkdaşlığın, ümumavropa ali təhsil məkanında dərəcələrin və ixtisasların tanınmasının, mobilliyin, məzunlar üçün beynəlxalq əmək arenasında əlverişli şəraitin yaradılmasının ali pedaqoji kadr hazırlığına təsiri açıqlanmışdır.

**Problemin tətbiqi əhəmiyyəti.** Elmi məqalədə istifadə olunan ideyalardan və nəzəri fikirlərdən ali məktəblərdə pedaqoji kadrların hazırlanmasında böyük əhəmiyyət kəsb edən metodiki vəsait, dərslik və tədris vəsaitlərinin hazırlanmasında böyük əhəmiyyəti vardır.

**Ədəbiyyat:**

1. Abbasov Ə., Cavadov İ. Təhsilin inkişafı üzrə Dövlət Strategiyası: perspektivlər və vəzifələr. Bakı: Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzi, 2015.
2. Abbasov O. Təhsilin idarə olunması. Bakı: "MM-S" müəssisəsi, 2016.
3. Ağayev Ə., Hüseynli S., İbadova M., Qəribov Ş., Məmmədova İ. Təhsilin konseptual problemləri. Bakı, 2008.
4. Abdullayeva T. Bolonya bəyannaməsinin Azərbaycan təhsilinə təsiri // ARTPİ-nin Elmi əsərləri, 2010, № 4
5. Abbasova A., Əliyev S., Paşayev T. Avropa kredit transfer sistemi və onun ali təhsilə tətbiqi // ARTPİ-nin Elmi əsərləri, 2011, № 3
6. Cəbrayılov İ. Pedaqoji kadr hazırlığının bəzi məsələləri // ARTPİ-nin Elmi əsərləri, 2014, № 2
7. Mahmudov M.C. Bolonya prosesi: problemlər, perspektivlər, reallıqlar. Bakı: Elm və Təhsil, 2010.

8. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. http: //www.president. az/articles/ 9779

9. Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin Avropa ali təhsil məkanına inteqrasiyası ilə bağlı bəzi tədbirlər haqqında. http : // www. meclis. gov. az/ ?/az/ stenoqram /287

**E-mail:** kamala@328inbox.ru

**Rəyçilər:** *ped.ü.fəls.dok., dos.,* ***K.R. Quliyeva***
*ped.ü.fəls.dok., dos.* ***S. Orucova***

**Redaksiyaya daxil olub:** 25.09.2019.